**5 aya yaxındır ki, dünya koronavirus pandemiyası ilə mübarizə aparır. Hadisələrin gedişi də göstərir ki, pandemiya asanlıqla məğlub olmaq istəmir. İndiyədək dünyanın 8 milyondan artıq əhalisini caynağına keçirə bilib. Hazırda ölkəmiz dünyada bu virusdan ən az itki verən dövlətlər sırasındadır. Bunu Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi də təsdiqləyib.**



# Yalnız qaydalara əməl etməklə koronavirusa qalib gəlmək olar

ÜST – ün baş direktoru Tedros Adhanom Qebreyesus kütləvi informasiya vasitələrinin nümayəndələrinə bildirib ki, Azərbaycan koronavirus pandemiyasına qarşı həm qlobal, həm də regional mübarizəyə öz töhfəsini verib. Baş direktor Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən videokonfrans formatında beynəlxalq səviyyəli toplantılarda da koronavirusa qarşı mübarizə barədə müzakirələr aparıldığını, özünün də həmin toplantıda iştirak etdiyini bildirib. T.A.Qebreyesus bu kimi addımları vacib hesab etdiyini vurğulayıb.

ÜST-ün baş direktoru Azərbaycanın koronavirus pandemiyasına qarşı mübarizəyə verdiyi qlobal töhfələri yüksək qiymətləndirib. Ölkəmizin qlobal səviyyəli bu mübarizəyə on milyon ABŞ dolları ianə etdiyini diqqətə çatdıran baş direktor bunun insan amilinə verilən yüksək dəyərin bariz nümunəsi olduğunu bildirib. Deyib ki, Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyədə bu mübarizədə güclü səylərini görür və alqışlayıram. Baş direktor imkandan istifadə edərək, bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə tibbi maska və digər qoruyucu vasitələr istehsal edən fabrik və sexlərin tikilib istifadəyə verilməsi ölkədə bu sahədə kifayət qədər ehtiyat yaradıb. Bundan əlavə, modul tipli xəstəxanaların tikilib istifadəyə verilməsi də koronavirusa yoluxanların müalicə olunmaları üçün əlverişli şərait yaratdı. Yeri gəlmişkən, qeyd edim ki, modul tipli xəstəxanalar COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Əsas məqsəd koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir.

Modul tipli xəstəxanalarda koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şərait yaradılıb. Bu xəstəxana mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Palatalara ötürülən hava ventilyasiya qurğusu ilə təmizlənir. Yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi bir daha Azərbaycanda əhalinin sağlamlığının qorunması üçün bütün imkanların səfərbər olunduğunu təsdiqləyir. Bütün bunlar ölkəmizin koronavirusla mübarizədə qətiyyətini və pandemiya dövründə səhiyyə infrastrukturunun daha da gücləndirilməsi sahəsində dövlətin xüsusi diqqətini nümayiş etdirir.

Prezident İlham Əliyev də qısa bir vaxtda belə xəstəxanaların tikilib istifadəyə verilməsinin koronavirusla mübarizədə mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Dövlət başçısı deyib ki, modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin maddi-texniki bazası və koronavirusla mübarizədə tibbi infrastruktur daha da güclənmiş oldu. Bu isə koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması və tibbi koordinasiyanın daha da səmərəliliyinə öz töhfəsini verəcək. Bütün bu addımlar bir daha göstərir ki, bizim üçün vətəndaşların sağlamlığı hər şeydən üstündür.

Göründüyü kimi, dünyanın heç bir ölkəsində koronavirusla mübarizə Azərbaycanda olduğu kimi ciddi aparılmır. Təəssüf ki, bəzi insanların laqeydliyi, biganəliyi bu xəstəliyin yayılmasının qarşısını tam almağa imkan vermir. Tibbi maskalardan istifadə məcburi olsa da, hələ də bu qaydalara əməl etməyənlər var. Hətta polis həmin insanları qoruyucu vasitələrdən istifadəyə çağıranda kobudluq edir, asayiş keşikçilərinə müqavimət göstərməyə cəhd edirlər. Bir neçə gün əvvəl Yasamal rayonu ərazisində belə bir biabırçılığın şahidi olduq. Polis insanların asayişini qoruyur, onlara kömək edir, bəziləri isə asayiş keşikçilərinin üstünə qaynar su, zibil və digər əşyalar atırlar. Mən bu hadisəni görəndə çox təəccübləndim. Məgər polislər bizim balalarımız, qardaşlarımız deyilmi? Məgər polis əməkdaşları xarici ölkələrdən gətirilib? Niyə onlara qarşı belə hörmətsizlik, tərbiyəsizlik nümayiş etdirməliyik?

Həftəsonu karantin rejiminin sərtləşdirilməsi zamanı bir daha şahid olduq ki, polis əməkdaşları təcili yardım işçiləri ilə çiyin-çiyinə insanlara kömək etdilər. Çörəyə, dərmana, suya, hətta həkimə ehtiyacı olan onlarca ailə polisə müraciət etdi. Həmin günlərdə təcili yardım maşınları daha çox çağırışa getdiklərindən bəzi hallarda polis əməkdaşları onların da əvəzinə xəstəxanalara xəstə apardılar. Budurmu bu xeyirxahlığın, qayğıkeşliyin əvəzi?

Həftəsonları karantin rejiminin gücləndirilməsi heç kimi xoflandırmamalıdır. Əgər karantin rejiminin sərtləşdirilməsini istəmiriksə, onda operativ qərargahın və TƏBİB-in tələblərini nəzərə almalı, gigiyenik qaydalara əməl etməli, tibbi maskalardan və digər qoruyucu vasitələrdən istifadə etməliyik. Bu, heç kimin xarici görünüşünə xələl gətirməz. Əgər möhtərəm Prezidentimiz və Birinci vitse-prezident qapalı şəraitdə tibbi maskalardan istifadə edirlərsə, digər insanlar niyə istifadə etməməlidirlər.

Gəlin, qaydalara əməl etməklə, sağlamlığımızı, ətrafımızdakıları qoruyaq və koronavirusa qalib gələk.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı,***
***Yeni Azərbaycan Partiyası***
***Nəsimi rayon təşkilatının sədri***